# Vergilər Nazirliyində bankların rəhbər vəzifəli şəxslərinin iştirakı ilə iclas keçirilib

*Yanvarın 9-da Vergilər Nazirliyinin və ölkəmizdə fəaliyyət göstərən bankların rəhbər vəzifəli şəxslərinin iştirakı ilə iclas keçirilib.*






Vergilər Nazirliyi analitik-informasiya şöbəsinin məlumatına görə, vergilər nazirinin birinci müavini Natiq Əmirov banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərə gəlir vergisi üzrə güzəştlərin başa çatması və Milli Məclis tərəfindən qəbul edilmiş “Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” qanunla əlaqədar bu gəlirlərin vergiyə cəlb edilməsindəki dəyişikliklər barədə toplantı iştirakçılarına məlumat vermişdir.

Vergilər Nazirliyi və Mərkəzi Bank arasında aparılmış məsləhətləşmələrin nəticəsi olaraq bildirilmişdir ki, bank əmanətləri üzrə əldə edilən gəlirlərin vergiyə cəlb edilməsi müvafiq güzəşt edilən məbləğ (illik 500 manat) nəzərə alınmaqla 2015-ci il yanvarın 1-dən sonra hesablanmış faizlərə tətbiq ediləcəkdir. N.Əmirov bunun balanslaşdırılmış bir qərar olduğunu bildirərək, bununla da, bank sektorunun üzləşdiyi narahatlığın aradan qaldırıldığını qeyd etmişdir.

Toplantıda iştirak edən Mərkəzi Bankın baş direktoru Rəşad Orucov bu qərarın ədalətli olduğunu qeyd etmiş, qəbul edilmiş qərarlar və əmanətlərin vergiyə cəlb edilməsi ilə əlaqədar məsələlərlə bağlı müştərilərin məlumatlandırılmasının zəruriliyini bank nümayəndələrinin nəzərinə çatdırmışdır.

Toplantıda bank əmanətlərinin vergiyə cəlb edilməsində yaranan müxtəlif məsələlərlə bağlı bankların səlahiyyətli nümayəndələrinin çoxsaylı sualları cavablandırılmışdır.

**Ülvi QARAYEV,**
**“Respublika”.**